www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 26 dekabr 2014-cü il Cümə № 315 (6014) Qiymәti 40 qәpik

**Xəbər**

## Lənkəranda ana 2 yaşlı oğlunu boğub öldürdü

yazısı səh.15-də

**Gündəm**

### Əfv siyahısı tam hazırdır



İşçi Qrupu işlərini yekunlaşdırıb; bugünlərdə əfv sərəncamının veriləcəyi gözlənilir; məhbus ailələri ümidlidir

yazısı səh.7-də

*Milli Şura üzvü:*

### "Elələri var ki, biz onlarla bir addımlaya bilmərik"

yazısı səh.6-da

### Rusiyadan Azərbaycana maşın gətirmək yasaqlandı

yazısı səh.10-da

### Xaricdə döyüşmüş 30 Azərbaycan vətəndaşı qayıdarkən saxlanılıb

yazısı səh.8-də

### Benzin ucuzlaşmayacaq

yazısı səh.5-də

### Şamaxıda bələdiyyəyə namizədin üstünə tapança çəkilib

yazısı səh.3-də

### YAP müxalifətin saxta seçki iddialarına cavab verdi

yazısı səh.6-da

### Rusiya Azərbaycana qarşı ritorikasını sərtləşdirir

yazısı səh.8-də

### İki böyük neft zavodu birləşdirildi, ixtisarlar başlayır...

yazısı səh.12-də

### Bakıda qaz sobası qırğını: 21 nəfər zəhərləndi, 1 nəfər öldü

yazısı səh.15-də

### Məşhur kamança ifaçısının qızı əməkdaşımıza nələr danışdı

yazısı səh.13-də

### Bayram gəldi, vağzallarda biletlər qeybə çəkildi...

yazısı səh.12-də

## Hay-küylü cinayət işində şok gəlişmə

# VİTSE-ADMİRALIN AZADLIĞA ÇIXMASININ MÜDHİŞ SİRRİ

Rusiyadakı qohumlarının əlaqələri Şahin Sultanovun "xilas kəməri"nə çevrildi; onun barəsində cinayət işi xətm oluna bilər




yazısı səh.5-də

## Ən qüdrətli nazirlərdən biri haqda növbəti "gedir" xəbəri

Ziya Məmmədovun Avropa Yay Oyunlarından sonra istefaya göndəriləcəyi xəbəri var; nəqliyyat "imperatoru"nun haqqında vaxtaşırı vəzifədən gedəcək xəbərləri onun hədəfdə olduğunu göstərir

yazısı səh.10-da



### Eldar Əzizov bu il niyə prezidentin ad günündə tort hazırlatmadı?

yazısı səh.6-da



*Etibar Məmmədov:*

### "Meydan sulayan onlardır"

yazısı səh.4-də



### Həbsdəki jurnalist əfv üçün prezidentə müraciət edib

yazısı səh.3-də

**26 dekabr 2014**

# Ramil Usubov polisi gücləndirilmiş iş rejiminə keçirdi



**Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ilə əlaqədar Azərbaycan polisi gücləndirilmiş iş rejimində işləyəcək. Virtualaz.org Daxili İşlər Nazirliyinin mətbuat xidmətinə istinadən bildirir ki, bununla bağlı daxili işlər naziri, general-polkovnik Ramil Usubov müvafiq əmr imzalayıb.**

Əmrə əsasən, Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ilə əlaqədar DİN-in bütün orqan və hissələrinin şəxsi heyəti ictimai asayişin və təhlükəsizliyin daha da nümunəvi təmin edilməsi üçün bayram ərəfəsində və bayram günləri gücləndirilmiş iş rejimində çalışacaq.

Bayram şənliklərinin təşkil olunduğu, insanların gur toplaşdığı yerlərdə polis naryadlarının sayı artırılacaq. Respublika ərazisində ictimai qayda və ictimai təhlükəsizliyin təmin edilməsi məqsədi ilə bütün qüvvə və imkanlar səfərbər ediləcək.

# QHT Şurası 2014-ə yekun vurdu

**Dekabrın 25-də Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası Katibliyinin 2014-cü ilin dördüncü rübünün və ilin yekunları ilə bağlı toplantısı keçirilib. Şura sədri, deputat Azay Quliyev çıxışında 2014-cü ilin qurumun fəaliyyətində uğurlu il olduğunu, şuranın ölkədə və xaricdə Azərbaycanın milli maraqlarının müdafiəsinə həsr olunan çoxsaylı uğurlu layihələr həyata keçirdiyini bildirib.**

"Media forum" saytına verilən rəsmi məlumata görə, şura sədri 2014-cü il ərzində vətəndaş cəmiyyəti institutlarının fəaliyyətində boşluqların aradan qaldırılması, effektivliyin artırılması, şəffaflığın təmin olunması istiqamətində qanunvericiliyə edilən dəyişikliklərin qurumun üzərinə mühüm vəzifələr qoyduğunu bildirib.

Azay Quliyev prezident İlham Əliyevin il ərzində şuranın büdcəsinin və səlahiyyətlərinin artırılması ilə bağlı bir neçə sərəncam imzalamasını QHT sektoruna böyük diqqət və etimad nümunəsi adlandırıb.

Şura Katibliyinin hüquqşünası Fərid Rüstəmov 2014-cü il ərzində milli QHT-lərin 386 layihəsinin maliyyələşdirildiyini deyərək və onların icra vəziyyəti haqqında məruzə edib.

# Fətullah Gülən kirayədə yaşayır

**Barəsində həbs qərarı çıxarılan din xadimi Fətullah Gülən sərvətindən danışıb. Azvision.az-ın məlumatına görə, F. Gülən heç bir sərvətinin olmadığını açıqlayıb və bildirib ki, kitablarından qazandığı gəlirlə yaşayır.**

"Daş üstündə bir daşım da yoxdur. İstəsəydim mənim də sərvətim olardı. Əsgərlikdən öncə mollalıqla məşğul oldum. Dövlətdən maaş alırdım. Kasıb olmasaydım heç dövlətdən maaş alardımmı? Amma kasıb idim. Gündə bir-iki dəfə yemək yeməklə, dövlətin verdiyi 57 manatla (170 lirə ) illərlə ömür sürmüşəm. Sadəcə kitablardan gələn gəlirlə dolanıram. Bu evin kirayə haqqı olan 1880 manatı da (5500 lirə) həmin gəlirlə ödəyirəm. Bu evin sadəcə 1 otağında yaşayıram. Tez-tez hörmətli dostlarım yanıma gəlirlər. Vallahi də, billahi də bu belədir".

**Daha sonra F.Gülən ailəsi barəsində danışıb:** "İmkanlı bir ailədə doğulmamışam. Atam dindar idi. Qardaşlarımın evində yediyim yeməyin belə hesabını özüm ödəmişəm".

# «Avtoş» «KamAZ» sürücüsünə 25 sutka həbs verildi

**Bakıda avtoxuliqanlıq edən, yol polislərinə tabe olmayaraq qaçan, həmçinin polis əməkdaşlarının həyatına təhlükə yaradan «KamAZ» markalı, 54 AC 578 dövlət nömrə nişanlı yük avtomobilinin sürücüsü Yusif Abasqulu oğlu Mehdiyev həbs olunub.**

Bu barədə avtosfer.az-a Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin bölmə rəisi, polkovnik-leytenant Vaqif Əsədov məlumat verib.

Onun sözlərinə görə, «KamAZ»ın sürücüsü Əziz Əliyev küçəsində «hərəkət qadağandır» nişanının təsir zonasına daxil olduğu üçün saxlama işarəsi verilib. Lakin sürücü avtomobili saxlamadan hərəkəti davam etdirib: «Həmin sürücünün saxlamaq cəhdi baş tutmadığı üçün o, Bayraq Meydanına qədər sərbəst hərəkət edib. Lakin Dövlət Yol Polisi əməkdaşları Bayraq Meydanı yaxınlığında süni sıxlıq yaradaraq maşını dayandıra biliblər. Həmin sürücü və toplanmış materiallar Səbayel Rayon Məhkəməsinə təqdim olunub. Məhkəmənin qərarı ilə sürücüyə 25 sutka inzibati həbs cəzası verilib. Bundan başqa, məhkəmə Yusif Mehdiyevin 1 il müddətinə sürücülük hüququndan məhrum edilməsi barədə də qərar çıxarıb».

**Vaqif Əsədov bildirib ki, həmin sürücü polisin qanuni tələbini yerinə yetirməməklə yanaşı, xidmətdə olan polis əməkdaşlarının həyatına dəfələrlə təhlükə yaradıb. Bundan əlavə, o, sürət həddini aşaraq təhlükəli manevrlər etməklə avtoxuliqanlıq əməllərinə də yol verib:** «Təsəvvür edin ki, sürücü yol polislərinin həyatına təhlükə yarada-yarada Əziz Əliyev küçəsi kəsişməsindən Bayraq Meydanına qədər qaça bilib».

Məhkəmə zamanı Yusif Mehdiyev avtoxuliqanlıq etməkdə özünü təqsirli bilərək əməlindən peşman olduğunu deyib.

## Başsağlığı

**Rauf Arifoğlu və "Yeni Müsavat" qəzetinin kollektivi Ələsgər Süleymanlıya əmisi**
**Hüseyn müəllimin**
**vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

# "Onlar anlamalıdırlar ki..."

## Əli Həsənov Qərb dövlətlərinin Azərbaycandakı vəziyyətlə bağlı iradlarına cavab verdi

**Prezidenti Administrasiyası İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov 2014-cü ilin yekunları ilə bağlı «AzərTAc»a müsahibə verib.**

Müsahibədə Ə.Həsənov Qərb dövlətlərinin və xarici təşkilatların Azərbaycanda insan hüquq və azadlıqlarının vəziyyəti ilə bağlı iddialarını qiymətləndirib. "Bir-birinin daxili işlərinə müdaxilə etməmək ayrı-ayrı ölkələrlə əməkdaşlığımızın başlıca şərtləri sırasına daxildir" deyən PA rəsmisi Azərbaycanda qanunun aliliyinin təmin olunduğunu bildirib: "Azərbaycanda hər kəsin fikir, söz və məlumat azadlığı təmin edilib, vətəndaş cəmiyyəti institutlarının, müstəqil medianın fəaliyyəti üçün zəruri şərait yaradılıb. Hazırda Azərbaycanda yüzlərlə QHT, media orqanı heç bir maneə olmadan, tam sərbəst şəkildə fəaliyyət göstərir.

Azərbaycan hökumətinin əsas tələbi ondan ibarətdir ki, inkişaf etmiş Avropa ölkələrində olduğu kimi, Azərbaycanda da QHT-lərin və medianın fəaliyyətində demokratik azadlıqlardan sui-istifadə hallarına yol verilməsin və bu sahədə qanunların aliliyi təmin olunsun". Ə.Həsənov deyib ki, "son zamanlar ABŞ və Avropa İttifaqının müəyyən dairələrinin,



bəzi beynəlxalq təşkilatların Azərbaycana qarşı yürütdüyü qərəzli, ikili standartlar siyasəti artıq bütün etik çərçivəni aşıb və tərəfdaşlıq münasibətlərinə sığmayan, qarşılıqlı əməkdaşlıq prinsipinin ruhuna zidd, dözülməz hal alıb". Bəzi ölkələrin rəsmi şəxsləri, bir sıra media orqanları və vətəndaş cəmiyyəti institutları sanki mikroskop altında Azərbaycanda problemlər axtarır, öz fəaliyyətlərini büsbütün ölkəmizə qarşı qərəzli kampaniyalar təşkil etməyə yönəldirlər. Halbuki həmin ölkələrin özlərində insan hüquq və azadlıqlarının kobud şəkildə pozulması, dini və irqi ayrı-seçkilik və digər məsələlərlə bağlı ciddi problemlər var. Məsələn, ABŞ-ın Ferqyuson şəhərində qaradərili gəncin polis tərəfindən qətlə yetirilməsindən sonra başlanan gərginlik özünü "demokratiyanın beşiyi" kimi qələmə verən bu ölkədə insan haqları sahəsində çox ciddi çatışmazlıqların olduğunu üzə çıxardı. Dinc etiraz aksiyalarının zor tətbiq etməklə dağıdılması, peşə borcunu yerinə yetirən jurnalistlərin döyülməsi və həbsi, hüquq müdafiəçilərinin təzyiqlərə məruz qalması və digər bu kimi hallar ABŞ-da insan hüquqlarına necə "hörmətlə" yanaşıldığını əyani şəkildə göstərdi. Analoji hallar həm də Avropanın bir çox inkişaf etmiş ölkələrində özünü büruzə verir" deyə, şöbə müdiri bildirib.

"Onlar anlamalıdırlar ki, Azərbaycan müstəqil dövlətdir, öz siyasətini xalqın iradəsinə, milli maraqlara uyğun şəkildə həyata keçirir və bundan sonra da bütün təzyiq və təhdid cəhdləri, qeyri-diplomatik ritorika heç bir nəticə verməyəcək və bütün əsassız iddialar adekvat şəkildə cavablandırılacaq"deyə, şöbə müdiri vurğulayıb.

# Rusiyalı nazirlər Milad bayramını kabinetdə keçirəcək

## Prezident və baş nazir göstəriş verdi; iqtisadi böhran Rusiyanı silkələyir

**"The Associated Press" agentliyinin xəbərində deyilir ki, Rusiya prezidenti Vladimir Putin Milad bayramı ilə bağlı nazirliklərin rəhbərlərinə müraciət edib. Prezident bildirib ki, indi uzunmüddətli bayram tətilini özümüzə rəva görə bilmərik. Ölkə iqtisadiyyatında bəlli problemlər olduğu bir vaxtda bu yolverilməzdir.**

Agentlik qeyd edir ki, Rusiyada bayram yanvarın 1-dən 12-nə qədər davam edir. Ortodoks xristian ölkəsi olan Rusiyada yanvarın 7-si əsas bayram günü sayılır.

Televiziya ilə nümayiş etdirilən Nazirlər Kabinetinin iclasında Putin deyib: "Ən azı bu il biz belə uzunmüddətli bayram tətilinə çıxa bilmərik. Siz başa düşürsünüz ki, mən nəyi nəzərdə tuturam".

Baş nazir Dmitri Medvedyev isə bildirib ki, yeni ilin elə ilk günündən iqtisadiyyatın müxtəlif sahələri ilə bağlı baş verən gəlişmələr, durum, vəziyyət tam nəzarətdə saxlanılmalıdır.

"The Associated Press" qeyd edir ki, Rusiya iqtisadiyyatında ciddi geriləmə müşahidə olunmaqdadır. Dünya bazarında neftin qiymətinin kəskin düşməsi və Qərbin Rusiyaya tətbiq etdiyi sanksiyalar ciddi təbəddülat yaradıb. İqtisadi böhran bütün sahələrdə aşkar şəkildə müşahidə olunur. Rublun dəyəri dollara və avroya nisbətdə kəskin şəkildə aşağı düşüb.

Rusiyanın Mərkəzi Bankı bəyan edib ki, ölkənin valyuta ehtiyatları 400 milyard dollara düşüb. Bu, 2009-cu ildən bəri ən aşağı göstəricidir. Bank rublun dəyərini süni şəkildə qorumaq üçün valyuta bazarına xari-

# Ukraynada azərbaycanlıya yüksək vəzifə verilir

## Kliçkonun yaxını olan Maqsud Mahmudovu Ukrayna Gömrük Komitəsində yüksək vəzifəyə gətirəcəklər

**Azərbaycanlı iş adamı Maqsud Mahmudovu Ukraynada yüksək vəzifəyə təyin edəcəklər. Ukrayna mətbuatının yazdığına görə, M.Mahmudov Ukraynadakı Maydan hadisələrində orada olub və Azərbaycan bayrağını dalğalandırıb. Bu isə diqqətdən kənarda qalmayıb. Onun yəhudi əsili şəriki Qurban Kutaisoviç vasitəsilə Ukrayna hakimiyyət elitasına çıxışı olduğu da bildirilir. Qeyd olunur ki, M.Mahmudovun UDAR Partiyasının lideri, dünya şöhrətli boksçu Vitali Kliçko ilə də əlaqələri var.**

Həmin əlaqələri haqda Q.Kutaisoviç bir qədər əvvəl mətbuata açıqlama vermişdi. Demişdi ki, V.Kliçko ilə əsgər yoldaşı olub və hərbi xidmətdən sonra da dostluq münasibətləri davam edib. Həmin açıqlamadan sitat: "Kliçko çox sadə insandır. 8 ay onunla hərbi xidmətdə olduq, bilmədik ki, o idmançıdır. Halbuki həmin vaxt o artıq Ukrayna çempionu olmuşdu. Sonradan zabitlərdən eşitdik ki, Kliçko peşəkar boksla məşğuldur".

Maqsud Mahmudov isə demişdi ki, Ukraynada kiçik bizneslə məşğuldur. Ukraynadakı Maydan hadisələrində də orada olub və Azərbaycan bayrağını dalğalandırıb.

**Həmin yazıdan sitat:** "Bu mənim üçün şərəfdir. Bayrağımızın hər yanda dalğalanmasından qürur duyuram. Əgər bunda mənim də kiçik bir xidmətim olubsa, sevinirəm. Azərbaycan bayrağını Maydanda dalğalandıranda nəinki Kliçko, bir çoxları mənə yaxınlaşıb qucaqladı, öpdü, bizə və xalqımıza olan sevgilərini dilə gətirdilər. Hazırda Ukraynanın baş naziri olan Yatsenyuk da mənlə görüşdü. Bayrağı dalğalandıranda qucaqladı, gözləri dolmuşdu. Mən Ukraynaya onunla tanışlığa görə getməmişəm. Sadəcə olaraq, orada olan azərbaycanlılar kimi Ukrayna xalqının həmrəyliyinə şərik olmuşam. Bir daha təkrar edirəm, Azərbaycan bayrağını dalğalandırandan sonra onlar mənimlə görüşdülər".

Qeyd edək ki, M.Mahmudov Ukraynada yüksək vəzifəyə gətirilən ilk azərbaycanlı deyil. Bir qədər əvvəl Azərbaycanın Dubaydakı keçmiş vitse-konsulu, Ukrayna Qafqaz Xalqları Konqresinin sədri Paşa İlisuyskiy (Məmmədov) Ukrayna Xarici İşlər Nazirliyinin Radasına təyinat alıb.

❑ **E.HÜSEYNOV**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

# "Qorotdel"ə yeni idarə rəisləri təyin olundu

**Bakı Şəhər Baş Polis İdarəsinə (BŞBPİ) yeni təyinatlar olub. APA-nın məlumatına görə, daxili işlər naziri, general-polkovnik Ramil Usubovun imzaladığı müvafiq əmrlərlə Vüqar Əliyev BŞBPİ-nin Təşkilati-İnspektor İdarəsinin rəisi, Elçin Əsədov Kadrlar İdarəsinin rəisi, Zaur Fətəliyev isə Narkotiklərlə Mübarizə İdarəsinin rəisi vəzifələrinə təyin ediliblər.**

DİN-in mətbuat xidmətindən faktı təsdiqləyiblər. Qeyd edək ki, bir müddət əvvəl BŞBPİ-də yoxlamalar həyata keçirilib.

Yoxlamaların nəticəsi olaraq işdə yol verdikləri ciddi nöqsanlara görə BŞBPİ-nin Təşkilati-İnspektor İdarəsinin rəisi Əli Hacıyev, Kadrlar İdarəsinin rəisi Səbuhi Cəfərov, Narkotiklərlə Mübarizə İdarəsinin rəisi Musa Hacıyev və rəis müavini Mövsüm Qurbanov, Katibliyin rəisi Namiq Aslanov, Təhqiqat Şöbəsinin rəisi Ayxan Bağırov və digər 3 əməkdaş daxili işlər nazirinin əmri ilə tutduqları vəzifələrdən azad olunublar. Yoxlamaların Daxili İşlər Nazirliyinin əsas Təşkilati Tədbirlər Planına uyğun olaraq aparıldığı bildirilib.

# Yol polisi ksenon lampalarla bağlı sürücülərə xəbərdarlıq etdi

**"Yol hərəkəti haqqında" Qanunun tələbinə əsasən, standarta uyğun olmayan ksenon lampaların quraşdırıldığı avtomobillər yol hərəkətindən kənarlaşdırılacaq. Sürücülər barəsində isə ciddi tədbirlər görüləcək. İstehsalçı zavodun müəyyən etdiyi tələblərin pozulmasına görə sürücülər məsuliyyətə cəlb edilirlər.**

Bunu "Trend"ə Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin İctimai qurumlarla əlaqə bölməsinin rəisi, polis polkovnik-leytenantı Vaqif Əsədov deyib.

Bölmə rəisi bildirib ki, paytaxtda günün qaranlıq saatlarında baş vermiş yol qəzalarının təhlili göstərir ki, hadisələrin baş verməsinin əsas səbəblərindən biri də avtomobillərə qoyulan ksenon lampalar və onlardan düzgün istifadə edilməməsidir. Hətta kseonon lampalara görə bu ilin əvvəlindən 8 avtomobilin hərəkət edərkən və ya dayanmış halda yanması halı da qeydə alınıb: "Söhbət standarta uyğun olmayan ksenon lampaların avtomobillərə quraşdırılmasından gedir. Bəzən avtomobillərə Çin istehsalı olan, keyfiyyətsiz, standarta uyğun olmayan ksenon lampalar quraşdırılır ki, bu da avtomobilin elektrik sistemində naqillərin qızmasına və sonda yanğına səbəb olur.

Bakı Şəhər Dövlət Yol Polisi İdarəsi bütün avtomobil sürücülərinə və sahiblərinə müraciət edərək bildirir ki, qeydə alınan yol-nəqliyyat hadisələrinin təhlilinə əsasən, standarta uyğun olmayan, keyfiyyətsiz, avtomobili istehsal edən zavod tərəfindən nəzərdə tutulmayan lampaların avtomobillərə quraşdırılması və istifadə edilməsi xoşagəlməz hallarla nəticələnə bilər. Bu, nəticədə həmin avtomobil sahibləri və sürücülərinin, eləcə də yol hərəkətinin digər iştirakçılarının həyatına təhlükə yaradır".

YENİ MÜSAVAT
N 315 (6024) 26 dekabr 2014




**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Məhbəsdə ölən məhkumun yaxınları Prezident Administrasiyasına gedəcək

**Dekabrın 25-də 14 saylı cəzaçəkmə müəssisəsində ölən məhkum Elşad Babayevin üç mərasimi keçirilib. Bu haqda “Yeni Müsavat”a onun yaxınlarından biri məlumat verib. Bildirib ki, onlar bu gün (dekabrın 26-da) Prezident Administrasiyasına, Baş Prokurorluğa və Ədliyyə Nazirliyinə gedərək E.Babayevin öldürülməsində suçu olan məmurların məsuliyyətə cəlb olunmasını tələb edəcəklər. E.Babayevin meyiti dekabrın 23-də Qusarın Şirvanovka kəndində torpağa tapşırılıb.**

## Penitensiar Xidmət “...məlumatlar həqiqəti əks etdirmir” deyir
## Elçin Behbudov: “Burada burcutmağın yeri yoxdur”



“14 saylı cəzaçəkmə müəssisəsində saxlanılan məhkum Elşad Babayevin işgəncə ilə öldürülməsi barədə yayılan məlumatlar həqiqəti əks etdirmir”. Bunu isə APA-ya açıqlamasında Ədliyyə Nazirliyi Penitensiar Xidmətin rəisinin mətbuat məsələləri üzrə köməkçisi Yaşar İsakov deyib. Y. İsakov bildirib ki, dekabrın 22-də 14 saylı cəzaçəkmə müəssisəsində baş vermiş hadisə ilə bağlı Penitensiar Xidmət ictimaiyyətə rəsmi açıqlama verib: “Hadisə ilə bağlı, eləcə də məhkum Elşad Babayevin vəfatı ilə əlaqədar Qaradağ Rayon Prokurorluğu tərəfindən araşdırma aparılır. İctimaiyyətə bu haqda rəsmi məlumat veriləcək”.

**“Bu, sırf işgəncədir. Mən xahiş-tələb edirəm, ona bu işgəncəni verib ölümünə bais olanlar qanun qarşısında cavab verməlidirlər. Burada burcutmağın yeri yoxdur. Bu danılmaz faktdır”. Bunu “Yeni Müsavat”a İşgəncələr Əleyhinə Azərbaycan Komitəsinin sədri Elçin Behbudov deyib. E.Behbudov deyib ki, məhkumun yaxınları ona elektron müraciət ediblər:** “Elşad Babayev həyatını evində, küçədə yox, dövlətin cəzaçəkmə müəssisəsində dəyişib. Onun bədənində çoxsaylı işgəncə izləri var. Bu gün (dekabrın 26-da) mən baş prokuror Zakir Qaralova müraciət ünvanlamışam ki, bu ölüm faktı araşdırılsın”.

**E.Behbudov E.Babayevin işgəncə verilərək öldürülməsinə şübhələrin əsassız olduğunu açıqladı:** “14 saylı cəzaçəkmə müəssisəsinin rəhbərliyi də, Penitensiar Xidmətin rəhbərliyi də bu hadisəyə görə birbaşa məsuliyyət daşayırlar”.

**Hüquq müdafiəçisi E.Babayevin ölümü ilə bağlı hazırladığı hesabatı ölkə rəhbərliyinə, müvafiq qurumalara və beynəlxalq təşkilatlara da təqdim edəcəyini açıqladı:** “Yanvarın 9-da həmin hesabatı ictimaiyyətə, cəmiyyətə də təqdim edəcək, mətbuata açıqlayacağam”.

Qeyd edək ki, 14 saylı cəzaçəkmə müəssisəsində cəza çəkən məhkum Elşad Babayev dekabrın 22-də müəssisədə dünyasını dəyişib. Bundan sonra müəssisədə saxlanan məhbuslar üsyana qalxıblar. Müəssisəyə qoşun yeridilib.

**Dünyasını dəyişən E.Babayevin bacısı Simuzər Babayeva “Yeni Müsavat”ın redaksiyasına gələrək, müxbirimizə dəhşətli faktlar danışıb. O deyib ki, qardaşının meyiti üzərində çoxsaylı işgəncə izləri olub:** “Dekabrın 22-də axşam 7-8 radələrində telefonuma zəng gəldi. Kimliyi haqda məlumat verməyən şəxs dedi ki, qardaşın Elşadın meyiti Lökbatanda morqdadır. Ondan onun ölümünün səbəbini soruşdum. Dedi ki, heç bir məlumat verə bilmərik. Dediyi ünvana getdim. Meyitxanada qardaşımın meyitinə baxdım. Onun qollarında, ayaqlarının altında, boynunda, belində, üzündə xəsarətlər, işgəncə izləri vardı. Ayaqlarının altı şişmişdi. Morqdan bir sənəd verdilər. Orada qardaşımın ölümünün səbəbi göstərilməmişdi.

Bu gün də bunu bizə deməyiblər. Mən morqda qardaşımın meyitinin şəkillərini çəkmişəm".

S.Babayeva qardaşının işgəncələrə məruz qaldığını təsdiq edən şəkilləri də redaksiyamıza təqdim edib. Fotolarda E.Babayevin bədəninin müxtəlif hissələrində yaralar, yanıq izinə oxşayan böyük ölçülü ləkələr, izlər var. Penitensiar Xidmət məsələ ilə bağlı yaydığı açıqlamada bu ləkələrin, izlərin məhkumun bədəni üzərində hansı şəraitdə əmələ gəlməsinə toxunmur.

Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov məhkumun ölümü ilə bağlı rəsmi məlumat yayacaqlarını bildirib.

**Mövzuya qayıdacağıq.**

❑ **E.MƏMMƏDƏLİYEV**

## Həbsdəki jurnalist əfv üçün prezidentə müraciət edib

### İki jurnalist Yeni ildə azadlığa buraxıla bilər?

**Həbsdə olan jurnalist və hüquq müdafiəçisi Pərviz Həşimli əfv olunması üçün prezident İlham Əliyevə müraciət edib. Bu barədə moderator.az-a jurnalistin həyat yoldaşı İlahə Həşimova məlumat verib.**



Pərviz Həşimli

O bildirdi ki, Pərvizlə yanaşı özü və qızı da prezidentə müraciət edir: “5 yaşlı qızımız Zeynəb atasının yoxluğu ilə əlaqədar ciddi psixoloji travmalar keçirir. Bir neçə ay əvvəl qardaşım da qətlə yetirilib. Ailə başçımız da həbsdə olduğu üçün həm maddi, həm də mənəvi durumumuz həddindən artıq ağırdır. İnanırıq ki, prezident Pərvizi əfv edəcək” deyə, İlahə Həşimova bildirib.

Qeyd edək ki, bir neçə gün öncə Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Çingiz Qənizadə Yeni ildə veriləcək əfv fərmanı ilə bağlı münasibət bildirərkən demişdi ki, həbsdə olan iki jurnalist - Əvəz Zeynallı və Pərviz Həşimli əfv oluna bilər: “Məndə olan məlumata görə, barəsində hökm oxunmuş hər iki jurnalist cənab prezidentə əfv olunmaları üçün müraciət edib. Biz də hüquq müdafiəçiləri olaraq arzu edirik ki, onlar azadlığa buraxılsın. Təbii ki, bu, cənab İlham Əliyevin iradəsinə aid olan qərardır. Lakin onu da qeyd edim ki, ölkə başçısının onların əfv müraciətlərinə müsbət cavab verəcəyinə şübhə etmirəm”.

Bildirək ki, hazırda həbsdə bir neçə jurnalist olsa da, onlardan yalnız ikisi - “Xural” qəzetinin baş redaktoru Əvəz Zeynallı və Pərviz Həşimli barəsində məhkəmə qərarı hüquqi qüvvəyə minib.

“Yeni Müsavat” isə xatırladır ki, dekabrın 24-də Bakı Apelyasiya Məhkəməsinin qərarı ilə P.Həşimli barəsindəki qərar qüvvədə saxlanıb. İlkin instansiya məhkəməsi - Ağır Cinayətlər Məhkəməsi mayın 25-də P.Həşimli barədə 8 il azadlıqdan məhrum etmə cəzası verib.

“Bizim Yol” qəzetinin əməkdaşı və “moderator.az” saytının rəhbəri Pərviz Həşimli keçən ilin sentyabrında həbs edilib. O, Cinayət Məcəlləsinin 206.3.2-ci (qaçaqmalçılıq) və 228.2.1-ci (qanunsuz olaraq odlu silah əldə etmə, saxlama) maddələri ilə ittiham olunur. Pərviz Həşimli isə ittihamları rədd edir.

İnsan haqlarını müdafiə təşkilatları jurnalistin siyasi sifarişlə tutulduğunu deyirlər.

❑ **Sevinc TELMANQIZI**

## Sirac Kərimlinin istintaqı yekunlaşıb

**Həbsdə olan Müsavat başqanının müavini Fərəc Kərimli və qardaşı Sirac Kərimlinin istintaqlarının getdiyi barədə xəbər vermişdik. Artıq başqan müavininin qardaşının istintaqı yekunlaşıb. Bu barədə musavat.com-a qardaşların vəkili Nemət Kərimli məlumat verib: “Dekabrın 25-də Sirac Kərimlinin istintaqının yekunlaşdığı elan olundu. Artıq məhkəməyə hazırlaşacağıq.**



Sirac Kərimli

Əsas məsələlərdən biri də 1 saylı Bakı İstintaq Təcridxanasında vəkillərin qanunsuzluqlarla üzləşmələridir. Bütün siyasi məhbusların vəkilləri içəri daxil olarkən qanunsuz şəkildə yoxlamalardan keçirlər. Biz buna etiraz edirik. Bu hal 20 gündür ki, yaranıb. Əvvəlcə bir zabit, içəri daxil olduqdan sonra isə əməliyyatçı yoxlayır. Tamamilə bu proseslər qanunvericiliyə ziddir. Bütün bunlar birbaşa yuxarıdan gələn göstərişdir. Təcridxana rəisi bu qanunsuzluqları yaxşı bilir. Sadəcə tədbir görmək istəmir”.

Qeyd edək ki, Fərəc Kərimli iyulun 23-də həbs edilib. Onun həbsindən bir həftə əvvəl qardaşı Sirac Kərimli həbs edilib. Hər iki qardaşa qarşı Cinayət Məcəlləsinin 234.4.3 maddələri ilə (kütləvi şəkildə narkotik maddələr əldə etmə, saxlama və satma) cinayət işi açılıb. Onları bu maddə üzrə 7 ildən 12 ilə qədər azadlıqdan məhrumetmə cəzası gözləyir. Dekabr ayında qardaşların həbs müddəti daha iki ay uzadılıb.

❑ **Cavanşir ABBASLI**

# Şamaxıda bələdiyyəyə namizədin üstünə tapança çəkilib

### Seçki saxtakarlığı və ölüm təhdidi ilə üzləşən YAP üzvü prezidentə müraciət etdi

**23 dekabrda keçirilmiş bələdiyyə seçkilərində 85 saylı Şamaxı seçki dairəsindən namizəd olmuş YAP üzvü Salahov Toğrul Saleh oğlu və bitərəf namizəd Mikayılov Rəhman Vəzir oğlu seçki saxtakarlığı ilə bağlı şikayətlərini işıqlandırmaq üçün “Yeni Müsavat”dan kömək istəyiblər. Onlar seçki günü kütləvi şəkildə baş vermiş qanun pozuntuları barədə ölkə prezidentinə və MSK sədri Məzahir Pənahova müraciət ediblər. Namizədlər seçki saxtakarlıqlarını ifşa etdiklərinə görə hazırda ciddi təzyiqlərə məruz qaldıqlarını bildiriblər.**



YAP-ın namizədi Toğrul Salahov seçki günü üzləşdikləri hadisələri təfsilatı ilə “Yeni Müsavat”a danışdı: “Şamaxı rayonunun Göylər kəndindənəm. Yeni Azərbaycan Partiyasının üzvü, idman ustasıyam. Sahibkarlıqla məşğulam. 23 dekabrda keçirilən seçkilərdə Göylər kənd bələdiyyəsinə namizəd idim. Seçki günü haqsızlıqlarla üzləşdim. Bununla bağlı 115 qaynar xəttinə müraciət etdik. Amma heç bir tədbir görülmədi. Elə tanıdığım vətəndaşlar var idi ki, 2-3 məntəqədə səs verdilər. Bunlar aşkar olundu. Hətta iki dəfə səs verənlərin içərisində komissiya üzvü də var idi. Axşam vaxtı bülletenlər sayıldı. Nəticələri elan etmədən məntəqəyə polis çağırdılar. Seçki qutularını polislərin nəzarəti altında DSK-ya apardılar. Biz polis maşınlarının qarşısını kəsdik. Şikayətlərin araşdırılacağını bildirdilər. Biz onlardan protokol istədik. Amma vermədilər. DSK-nın qarşısına toplaşdıq. Üzərimizə çoxlu sayda polis yeritdilər. Təzyiqlərə məruz qaldıq. Bununla bağlı prezidentə, MSK-ya, ATƏT-ə müraciət etmişik. Seçki saxtakarlığının başında Göylər kənd icra nümayəndəsi İxtiyar Xəlilov dururdu. Hətta bir ay bundan qabaq o, açıqca deyirdi ki, pulumuzu vermişik, öz adamımız seçiləcək. Prezidentdən xahiş edirik ki, pulun kimə verildiyi araşdırılsın. Keçmiş bələdiyyə sədri Nəbi Nəbiyevi yenidən seçdirmək istəyirlər. Biz əmin idik ki, əhali bizə səs verəcək. Seçicilərin çoxuna saxta bülletenlər vermişdilər. Biz bu saxtakarlığı ifşa etdik. İndi yenidən seçdirmək istədikləri əvvəlki bələdiyyə sədri Nəbi Nəbiyev qanunsuz olaraq çoxlu sayda torpaqlar satıb. Biz elan etmişdik ki, seçiləsi olsaq, torpaq məsələsinə yenidən baxılacaq. Seçkinin nəticələrinin ləğvini tələb edirik. Yenidən seçki keçirilsin, görək kim qalib gələcək”.

**Bitərəf namizəd Rəhman Mikayılov məntəqəsinin sədrinin həyat yoldaşı tərəfindən üzərinə silah çəkildiyini bildirdi:** “Göylər kənd bələdiyyəsinə namizədliyimi irəli sürmüşdüm. Seçki günü səslər sayılandan sonra nəticələri elan etmədən qutuları DSK-ya apardılar. Seçki ərəfəsində çoxlu sayda müdaxilələrlə rastlaşdım. Göylər icra nümayəndəsinin müavini Fariz müəllim seçki günü məntəqənin qarşısında seçicilərdən Nəbi Nəbiyevə səs verməyi tələb edirdi. Hətta məntəqədəki müşahidəçilərdən biri icra nümayəndəsinin qardaşı idi. Bülletenlər onun maşınında aparıldı. Hətta mənim üstümə tapança çəkən də oldu. Bu, 21 nömrəli seçki məntəqəsi sədrinin həyat yoldaşı Seyfəddin Qəniyev idi. Amma hüquq-mühafizə orqanları buna susdular. Ölümlə hədələndim. Ölkə prezidentindən kömək istəyirəm. Bundan sonra da təzyiqlərin olacağı istisna deyil. Çünki ən çox səs topladığımıza görə susmayacağıq. Bunlar isə cinayətlərini ört-basdır etmək üçün təzyiq yolunu seçəcəklər. Haqsızlıq o həddə çatıb ki, bələdiyyədə 11-liyə belə düşməmişik. Prezidentdən kömək istəyirik”.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 315 (6024) 26 dekabr 2014

**İstiqlalçı deputat, AMİP lideri Etibar Məmmədov uzun müddətdir ki, aktiv siyasətlə məşğul olmur və mətbuatla da ünsiyyətə həvəs göstərmir. "Yeni Müsavat" qəzeti üçün ondan müsahibə almağımız da asan olmadı.**
**Milli azadlıq hərəkatının tanınmış simalarından olan E.Məmmədovun mövcud durumla bağlı özəl düşüncələrini öyrənmək istəsək də, AMİP lideri daxili siyasi proseslər haqqında danışmaq istəmədiyini bildirib müsahibədən imtina edirdi.**



*Ancaq sonda cəhdlərimiz nəticə verdi. Söhbətimizdə bir çox məsələlərdən, həmçinin qarşıdan 25 illiyi gələn 20 Yanvar hadisələrindən danışdıq.*

# "Meydan sulayan onlardır"

## Etibar Məmmədov: "Belə bir seçkinin olmağındansa, olmamağı yaxşıdır"

***- Etibar bəy, uzunmüddətli pauza götürməyinizin, aktiv siyasətlə məşğul olmamağınızın səbəbi nədir?***

- Mən onu bir dəfə izah eləmişəm. Cəmiyyətin özünün tələbatı var, cəmiyyətin daxilində siyasi qüvvələr var və bunların mütəmadi olaraq yerlərini dəyişməsi, yeni qüvvələrə şərait yaratması vacibdir. Ona görə də 10 il bundan qabaq, 2004-cü ildə mən qərar verdim, partiyanın sədrliyindən də getdim. Partiyadaşların xahişindən sonra fəxri statusu ilə razılaşdım. Buna baxmayaraq, heç bir şeyə müdaxilə etmirəm. Ancaq ölkədəki vəziyyəti də izləyirəm, baxıram. Məni də narahat edən məsələlər var, lakin birbaşa müdaxilə etmək fikrim yoxdur. Mən çox arzu edərdim ki, ölkədə siyasi fəallıq olsun, biz siyasi qüvvələrin yeni səviyyəyə qalxmasının, siyasi təşkilatların yeni səviyyədə formalaşmasının şahidi olaq və ölkə siyasi, daxili siyasi tolerantlıq baxımından dünyanın tələblərinə cavab verən səviyyədə olsun.

***- Partiya lideri o zaman rahat ola bilər ki, rəhbərliyində olduğu təşkilatda kifayət qədər güclü fiqurlar olsun, partiyası ciddi təsir imkanlarına malik olsun. Ancaq AMİP-in sizdən sonra zəif duruma düşməsi də faktdır, razılaşırsınız?***

- Təbii ki, elə görünür və elədir. Bu, mənim özümü də çox narahat edir. Ancaq bunu təkcə AMİP haqqında deyil, ölkədəki bütün siyasi təşkilatlar barədə demək olar. Yəni ölkədə siyasi partiyaların fəaliyyəti üçün lazım olan münbit şərait də yoxdur və onlarda güclü potensial da formalaşa bilmir. Bu da narahatedici faktordur. Mən həm AMİP-in vəziyyətindən narahatam, həm ümumiyyətlə, siyasi partiyaların, təşkilatların. O cümlədən hakim partiyanın da vəziyyətindən narahatam. Ölkənin, dövlətin güclənməsi üçün siyasi partiyaların güclənməsinə, onların güclənməsi üçünsə şərait yaradılmasına ehtiyac var.

***- Ancaq əksər siyasi partiyaların rəhbərləri sizdən fərqli olaraq yenə də partiyadaşları ilə bir sıradadır. Sizsə hələ proseslərin hələ qaynar vaxtından kənara çəkilibsiniz, 10 ildir müşahidə edirsiniz...***

- Siyasi mədəniyyət üçün nümunələr olmalıdır da. Nə vaxtsa buna başlanılmalıdır ki, kimsə normal qaydada kənara çəkilməyi bacarsın. Bunu biz ənənəyə çevirməliyik. O demək deyil ki, bir adam bir yerdən yapışdı, ömrünün sonuna qədər həmin postdan əl çəkməsin və elə təəssürat yaransın ki, başqalarına maneçilik edir, digərləri olsaydı, daha yaxşı nəticələr əldə olunardı. Bu şəraiti yaratmaq lazımdır. Yəni siyasi mədəniyyətimizdə bir ənənəyə çevrilməlidir.

***- Partiya qurultay çağırıb sizi yenidən AMİP sədrliyinə gətirmək istəsə...***

- Yox, mən o barədə heç düşünmürəm, elə bir fikrim də yoxdur. Bütün ölkədə siyasi partiyalaşma sisteminin təkmilləşməsinə, yenidən qurulmasına ehtiyac var. Siyasi partiyalar hansısa məsuliyyəti üzərlərinə götürməlidir. Əlbəttə ki, hakim partiyanın ideoloqları deyə bilər ki, müxalifət partiyaları, hakimiyyətdə olmayanlar buna hazır deyil, potensialları çatmır. Ancaq hətta çatmasa belə, buna kömək etmək, şərait yaratmaq lazımdır ki, onların potensialı artsın. Bu, dövlətin mənafeyi, güclənməsi üçün vacib şərtdir.

*(Bu arada müsahibim pauza verib "sən, deyəsən, məni siyasi söhbətlərə çəkirsən" deyib "iradını" bildirir. Mənsə əsas məsələnin üzərinə gələcəyimi vurğulayıb növbəti suala keçirəm -E.P.)*

***- Siyasi partiyaların maliyyələşməsi prosesi də gedir, AMİP bu prosesdən kənarda qalsa da. Sizin yanaşmanız necədir?***

- Maliyyə ayrılması məsələsini mən hələ 90-cı illərdə irəli sürmüşdüm ki, Azərbaycandakı siyasi təşkilatlar daxildən maliyyələşməlidir, istəyir ianələr, istəyir dövlət yardımı şəklində. Dövlət yardımı şəklində də onların maliyyələşməsinin prinsipləri dəyişməlidir. İndiki prinsiplərlə olan maliyyələşmə, partiyaların inkişafı, ümumiyyətlə, partiyalaşma prosesinin inkişafı üçün yetərli deyil. İndi parlamentdə təmsil olunma prinsipi əsas götürülür. Mən adicə bir şeyi deyə bilərəm ki, bu, ədalətsiz prinsipdir. Çünki nəzəri cəhətdən mümkündür ki, bütün ölkə üzrə seçki keçirilsin və hansısa partiya ölkə üzrə səslərin tutaq ki, 20-30 faizini qazansın, amma bir nəfəri də parlamentdə təmsil olunmasın. Beləliklə, 20-30 faiz seçicilərin sahibi olan partiya maliyyələşmədən kənarda qalır. Bu, ədalətsizdir, bunun haqqında fikirləşmək lazımdır. Ümumiyyətlə, seçki sisteminin haqqında düşünmək lazımdır. Bütün bunlar dövlətimizin güclənməsi üçün vacibdir. Ölkənin güclənməsi üçün daxildə mütəhərrikliyə, hərəkətliliyə, dinamikaya ehtiyac var. Durğunluq ölkəni həmişə zəifliyə aparır.

***- Yeri gəlmişkən, bələdiyyə seçkilərində səs verdiniz?***

- Yox. Mənim fikrimcə, elə bir seçkinin olmağındansa, olmamağı yaxşıdır.

***- Növbəti parlament seçkilərində iştirakınız mümkündür?***

- Mən hələ o barədə heç nə fikirləşmirəm.

***- İsa Qəmbərin Müsavat başqanlığından gedişini necə qarşıladınız?***

- Nə bilim. Neçə il başqan oldu?

***- 1992-ci ildən...***

- Bir igidin ömrüdür. (gülür) Mən onlardan fərqli olaraq onların partiyadaxili işinə qarışmağı istəmirəm.

***- Yeni başqan Arif Hacılı ilə münasibətləriniz necədir?***

- Görəndə salamlaşırıq. Əlaqəm yoxdur.

***- Son vaxtlar yenidən müxalifətin bir araya gətirilməsi, yeni koalisiyanın yaradılması təşəbbüsləri eşidilir...***

- Mən heç bu suallara cavab verməyə ehtiyac görmürəm.

***- Yəni real deyil?***

- Axı mən ölkə ictimaiyyətinin vəziyyəti haqqında dedim. Ona görə də lətifəyə çevrilmiş fikirlərin müzakirəsindən kənar olmaq lazımdır.

***- Etibar bəy, elə isə Rusiya təhlükəsi ilə üz-üzə qaldığı şəraitdə Azərbaycanın Qərblə münasibətlərindəki konfrontasiya şəraitini necə dəyərləndirirsiniz?***

- Təhlükəli vəziyyətdir. Çünki Rusiya Azərbaycanı həmişə təhdid edib, bundan sonra da təhdid edəcək. Rusiya dövlətinin xüsusiyyətidir. Bu dövlət yaranandan bu yana qarşısına qoyduğu məqsəd mümkün qədər çox torpaq işğal etmək olub. Çox zaman heç həmin torpaqlardan faydalana da bilməyib. Çünki özünün inkişaf səviyyəsi faydalanmağa imkan verməyib. Ancaq onlar vaxtilə işğal etdikləri əraziləri indi də özlərinin ata-baba malı hesab edirlər. Həm də növbəti dəfə həmin ərazini tutanda bunu işğal yox, özlərinin olan ərazinin geri qaytarılması sayırlar. Məsələn, Krım kimi...Ona görə də bu təhdid var, həmişə də olacaq. İndiki vəziyyətdə Rusiya ilə münasibətlərdə olan ehtiyatlılıq, məncə, düzgün mövqedir. Ehtiyatlı olmaq vacibdir. Lakin Rusiya ilə münasibətlərin yaxşı olması heç də o demək deyil ki, Qərblə münasibətlərdə kəskin konfrontasiyaya yol verilməlidir və beynəlxalq təsisatlara meydan oxunmalıdır. Çox vaxt da meydan oxuyanlar sabahkı gün hansısa böhranlı vəziyyət yarananda birinci aradan çıxanlar olur, onlar heç bir şeyə görə məsuliyyət daşımır. Təbii ki, məsuliyyət yenə də dövlətin, dövlət başçısının üzərində qalır. Bu gün kiməsə meydan oxuyanlar, kiməsə qarşı bəyanatlar verənlər səhəri gün vəziyyət kəskinləşəndə, yaxud dəyişəndə hamını ittiham etməyə də başlaya bilərlər.

Bizim üçün təhlükə təkcə Rusiyadan gəlmir. Qərb özü də Azərbaycana münasibətində heç də həmişə ədalətli olmayıb və bundan sonra da ondan ədalət gözləməyə dəyməz. Yəni Qərbin də özünün maraqları var. Azərbaycana münasibətdə də, başqa müstəqillik qazanmış dövlətlərdən fərqli münasibət göstərir. Çox zaman bizim bəzi adamlara elə gəlir ki, onlar daxildə güclü demokratik institutların olmasını, onun güclənməsini istəyir. Ancaq çox zaman heç də elə olmur. Azərbaycanda siyasi partiya institutların zəifləməsində Qərbin də rolu böyükdür. Qərbin marağındadır ki, Azərbaycanın daxilində dövlət maraqlarını düşünən, dövlət təfəkkürü olan insanlar, qurumlardansa, 3-4 nəfərin marağına qulluq edən QHT-ləri müdafiə etsin və onlar siyasi təşkilatları əvəz etdir. Bu məsələ dövlətin daxilində həll oluna bilər, çox böyük vəsait də tələb olunmur. Bunun mənəvi tərəfi də var. Sadəcə buna mane olan adamlar ortalıqda var, onlar kənarlaşdırılmalıdır ki, məsələ həllini tapsın.

***- Yəni vaxtilə istiqlalın əleyhinə olanlardan söhbət gedir?***

- Bəli, meydan sulayan onlardır...

***- Etibar bəy, 20 Yanvar hadisələrinin 25 illiyi ərəfəsindəyik. Yəqin ki, xalqımıza qarşı cinayətə hüquqi qiymət verilmədiyi qənaətindəsiniz...***



## "İsa Qəmbər neçə il başqan oldu?...Bir igidin ömrüdür..."

- Bəli, sona qədər bu, hüsinlər. Bu siyasət də uzun müddətdir ki, davam edir, nəticəsi də Azərbaycan üçün o qədər də xoşagələn deyil. Gəlib 15 QHT-ləri yığırlar, siyasi təşkilatları onlara qoşub deyirlər ki, "görüş keçirtdik". Özünə hörmət edən siyasi təşkilatlar heç o görüşlərə getməməlidir.

***- İstiqlalçı deputatların bir qrupu pensiya hüququndan məhrum edilmələri ilə bağlı Avropa Məhkəməsinə müraciət etməyə hazırlaşır...***

- Onların tələbləri qanunidir və pensiya təminatının nəzərdə tutulması vacibdir. Necə olur "raykom" katiblərinə qanunla xüsusi imtiyazlar verilir, onlar təqaüdlə təmin olunur. İstiqlalçı deputatlara isə təqaüd verilmir ki, siz 1995-ci il Konstitusiyasından əvvəlki dövrə aidsiniz? Bu, məntiqsizdir. Bu məsələ dövlətin daxilində həll oluna bilər, çox böyük vəsait də tələb olunmur.

quqi qiymətini almadı. Beynəlxalq səviyyədə hadisənin günahkarlarının təqib olunması təşkil olunmadı və bir nəfər də olsun həmin məsələlərə görə cinayət məsuliyyətə görə daşımadı. Buna görə biz dövlət və millət olaraq məsuliyyət daşıyırıq. Həmin hadisələrin bir daha təkrar olunmaması, ona bənzər hadisələrə cəhd göstərilməməsi üçün preventiv tədbirləri görməliydik. Tədbirlər də ancaq o şəkildə olur ki, heç bir şey cəzasız qalmasın. Ancaq təəssüf ki, cəzasız da qaldı, mənim hadisələrdə bilavasitə iştirak edənlər, onları təşkil edənlər və hərbi cinayətin iştirakçıları da məsuliyyətdən kənarda qaldı.

*(davamı sabahkı sayımızda)*

**ELŞAD PAŞASOY**

Yeni MÜSAVAT
N 315 (6024) 26 dekabr 2014

# Hay-küylü cinayət işində şok gəlişmə

**Dekabrın 25-də Bakı Hərbi Məhkəməsində Müdafiə Nazirliyi Hərbi Dəniz Qüvvələrinin (HDQ) sabiq komandanı, vitse-admiral Şahin Sultanov barəsində seçilmiş həbs-qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz olunmasına dair vəsatətə baxılıb. Vəkil Adəm Məmmədovun APA-ya verdiyi məlumata görə, prosesdə vəsatət təmin edilib və o, azadlığa buraxılıb. “Yeni Müsavat”a daxil olan məlumata görə isə sabiq komandandan əvvəl həbsdə olan Hərbi Dəniz Qüvvələrinin zabitləri də azad olunublar.**




# Vitse-admiralın azadlığa çıxmasının müdhiş sirri

## Rusiyadakı qohumlarının əlaqələri Şahin Sultanovun “xilas kəməri”nə çevrildi; onun barəsində cinayət işi xətm oluna bilər...

Onlar vitse-admiralla cinayət əlaqəsinə girib külli miqdarda vəsaiti mənimsəməkdə suçlu bilinirlər. Belə məlumatlar var ki, Ş.Sultanov həbsdə keçirdiyi aylar ərzində “yuxarılar”a çıxış axtarıb və nəhayətdə qohumlarının vasitəsilə belə çıxışı əldə edib.

Yada salaq ki, vitse-admiralın Rusiya Müdafiə Nazirliyində yaxın qohumlarının çalışması barədə bir qədər əvvəl hüquq müdafiəçisi Bəxtiyar Məmmədovun açıqlaması olmuşdu. O bildirmişdi ki, Şahin Sultanovun həyat yoldaşının əsl adı İrinadır. Lakin sonradan adı dəyişdirilərək İradə Sultanovaya çevrilib. B.Məmmədov vitse-admiralın xanımının Rusiyada müxtəlif dövlət qurumlarında, o cümlədən Rusiya MN-də yaxın qohumları işlədiyini də xüsusi olaraq vurğulamışdı.

**“Şahin Sultanov qaçaqmalçılıq fəaliyyəti zamanı yaxalanarkən bir neçə dəfə məhz bu qohumların vasitəçiliyi ilə məsuliyyətdən yayındırılıb və ”sudan quru" çıxıb. Qohumlarının Rusiya MN-də işləməsi faktını da Şahin Sultanov dövlət orqanlarından gizlədib. Halbuki o, bu barədə müvafiq qurumları məlumatlandırmağa borclu idi"**, - deyə Məmmədov bildirmişdi.

Bu məlumatlar onu söyləməyə əsas verir ki, vitse-admiralı uzunmüddətli həbsdən məhz Rusiyadakı qohumlarının əlaqələri xilas edib. Bu əlaqələr Sultanov üçün bir növ “xilas kəməri” rolu oynayıb.

Onu da yada salaq ki, vitse-admiralın həbsindən sonra onun vəkili Adəm Məmmədov və həyat yoldaşı İradə Sultanova mətbuat konfransı keçirmişdilər. Həmin konfransdakı çıxışı zamanı Sultanova belə bir fikir səsləndirmişdi: “Rusiyadan gələn admirallar baxıb çox təəccüblənirdilər. Deyirdilər ki, biz burada 1965-ci ilin gəmilərini qoyub getmişik. Elə bilirdik ki, gəlib Azərbaycanda daha o gəmiləri görməyəcəyik. Ancaq halal olsun ki, bu gəmilər bu qədər yaxşı qorunub saxlanılıb. Ruslar gəmiləri görəndən sonra şokda idilər. Qurban olum prezidentimizə ki, Vladimir Putin bura gələndə o da gəlib hər şeyi gözləri ilə gördü. Şükürlər olsun ki, Şahin onların üzünü ağ etdi”.

Xatırladaq ki, Respublika Hərbi Prokurorluğunun yaydığı məlumata görə, HDQ-də aparılan yoxlamalar zamanı qanun pozuntuları aşkar edilib. Qanun pozuntuları ilə bağlı Respublika Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb. Qanunazidd əməlləri törətməkdə təqsirli bilinən bir neçə nəfər, həmçinin HDQ-nin sabiq komandanı, vitse-admiral Şahin Sultanov təqsirləndirilən şəxs qismində cəlb edilməklə, Respublika Hərbi Prokurorluğunun təqdimatı əsasında aprelin 23-də Bakı Hərbi Məhkəməsinin qərarı ilə onun barəsində 3 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Ş. Sultanov Cinayət Məcəlləsinin 313-cü (vəzifə saxtakarlığı) və 179.3.2-ci (mənimsəmə - külli miqdarda törədildikdə) maddələri ilə təqsirli bilinir. Hazırda həmin cinayət işləri üzrə zəruri istintaq hərəkətləri davam etdirilir.

Belə məlumatlar da var ki, cinayət işinə xitam veriləcək.

❑ E.MƏMMƏDƏLİYEV

# Benzin ucuzlaşmayacaq

## ARDNŞ-in 1 ildə itirdiyi məbləğ 400 milyon manat olacaq

**Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) dünya bazarlarında neftin ucuzlaşması fonunda ölkədə benzinin ucuzlaşmamasına münasibət bildirib. “APA-Economics”in məlumatına görə, SOCAR-ın iqtisadi məsələlər üzrə vitse-prezidenti Süleyman Qasımov deyib ki, Azərbaycanda istehsal edilən “Aİ-92" markalı benzinin qiyməti Tarif Şurası tərəfindən tənzimlənir.**




Vitse-prezident bildirib ki, SOCAR ölkə daxilində benzinin pərakəndə satışından çox az miqdarda gəlir əldə edir: “Bu vəsait də gəlir vergisinin ödənilməsinə yönəldilir. Bundan başqa, SOCAR qonşu dövlətlərlə neft və neft məhsullarının qiymətini müqayisə edib. Bu qiymətlərin içində vergilərin həcmi müəyyən edilib. Məlum oldu ki, Azərbaycanda neft məhsullarının qiyməti daha aşağıdır, vergilər həcmi isə daha yuxarıdır. Bütün bunları nəzərə alaraq, məlum olur ki, benzinin qiymətinə hər hansı bir dəyişikliyin edilməsinə ehtiyac yaranmır. Ölkə daxilində manatın qiymətdən düşməsində heç bir problem yoxdur, camaatın aldığı maaşda heç bir dəyişiklik yoxdur. Təbii, dövlət sabah qərar qəbul etsə ki, yanacağın qiymətinə baxılsın, bu halda bu qiymətlərə baxıla bilər”.

**Ölkəyə gətirilən benzinin qiymətinin aşağı salınması məsələsinə toxunan S. Qasımov bildirib ki, “Aİ-95" və ”Aİ-98" markalı benzin dövlət tərəfindən tənzimlənmir:** “Bu markadan olan benzini bəzi şirkətlər gətirir. Bu baxımdan ölkəyə gətirilən benzinin də öz xərcləri var. Burada da bu yanacağın ölkəyə gətirilməsinin maya dəyəri nəzərə alınmalıdır”.

SOCAR son zamanlar dünya bazarlarında neftin ucuzlaşmasının şirkətin gəlirlərinə təsir edib-etməyəcəyi ilə bağlı məsələyə də aydınlıq gətirib.

**“APA-Economics”in məlumatına görə, şirkətin iqtisadi məsələlər üzrə vitse-prezidenti Süleyman Qasımov bildirib ki, neftin qiymətinin enib-qalxması ölkədə və dünyada gedən proseslərin qarşısında cüzi bir şeydir:** “Dünya bazarlarında neftin qiymətinin düşməsi siyasi məsələlərlə bağlıdır. Bunun SOCAR-a böyük təsiri olmayacaq. Azərbaycanda istehsal olunan neft daxili tələbata yönəlib və dövlət qiymətləri ilə tənzimlənir. Əgər gələn il də neftin qiyməti dünya bazarlarında 60 dollar civarında olarsa, şirkət 1 ildə itirdiyi məbləğ 400 milyon manat olacaq. Bu, böyük rəqəmdir, amma bunun şirkət üçün qorxusu yoxdur. Çünki bu itkilər Azərbaycan Dövlət Neft Fondu tərəfindən kompensasiya olunacaq”.

S.Qasımov deyib ki, dünya bazarında neftin ucuzlaşması ARDNŞ-in həyata keçirdiyi layihələrə təsir etməyəcək və həmin layihələrin maliyyələşdirilməsi dayandırılmayacaq.

# Tükənən kadr potensialı



Azər RƏŞİDOĞLU

**Uzun müddət müxalifətdə olmaq iqtidar opponentlərinin kadr potensialını da tükəndirir. Ölkənin aparıcı müxalifət partiyaları 10 il öncə nüfuzlu alimləri ilə fəxr edə bilirdilər. Hazırda belə dəbdəbə bir xülyaya çevrilib.**

Ənənəvi müxalifət partiyaları beynəlxalq vəziyyəti təhlil edə biləcək funksionerlərdən demək olar ki məhrum olublar. Amma vaxtilə Müsavat və AXCP-nin sıralarında təmsil edilən politoloq, konfliktoloq, sosioloq və hüquqşünaslar iqtidar mənsublarını asanlıqla məğlub edə, onların savadsızlıqlarını üzə çıxarda bilirdilər. İndi isə bu sahədə situasiya tamamilə fərqlidir.

Azərbaycan kimi kiçik ölkələr üçün dünyada cərəyan edən proseslərin olduqca böyük önəmi var. Bu baxımdan, geosiyasi prosesləri izləmək, nəticə çıxartmaq, ictimai rəyə düzgün təlqin etmək son dərəcə mühümdür. Liderləri çıxmaq şərti ilə, ölkənin aparıcı partiyalarında bu sahədə problemlər həddən ziyadə çoxdur. Vaxtilə, Asim Mollazadə, Hikmət Hacızadə, Rasim Musabəyov, Qabil Hüseynli kimi geopolitikləri olan partiyalarda indi jurnalistlərə bu mövzuda danışa biləcək respondenti bulmaq “Bermud üçbucağı”nda itən gəmini tapmaqdan daha çətindir.

Elə bunun nəticəsidir ki, partiyalar cılız intriqalara aludə olublar və gündəmdə qalmaq üçün “söyüş diplomatiyası”ndan istifadə edirlər.

Baş verənləri anlamaq mümkündür. Maliyyə resurslarından məhrum edilən müxalifətçilər yüksək təhsilli simaları öz sıralarına cəlb edə bilmirlər. Digər tərəfdən, müxalifətdə olmaq əzabdır və hər kəs onun məhrumiyyətlərinə dözə bilmir. Lakin bu heç də o anlama gəlmir ki, intellektsiz simalara partiyalarda qeyri-məhdud səlahiyyətlər verilməlidir.

Dünyada maraqlı proseslər baş verməkdədir. Məsələn, 2014-cü ildə Avropa Biliyindəki təlatümlərə baxmayaraq, London və Parisin proseslərdən qəsdən kənarlaşması Almaniyanın qəti olaraq köhnə kontinentin lideri kimi yerini möhkəmləndirməsi ilə nəticələndi. Moskva ilə Berlin arasında əsası Villi Brandt tərəfindən qoyulan xüsusi münasibətlərin başa çatması fonunda, Almaniyanın dünya liderliyinə önəmli addımlar atmasının kökündə nə dayanır və baş verənlər bütün Avropa üçün hansı nəticələrə gətirib çıxara bilər? Bu sual üzərində baş sındırmaq sosial şəbəkələrdəki statuslara like almaqdan daha çətindir. Cılız adamların statuslarına reaksiya bildirməkdənsə Rusiyanın Qərb siyasətinin fiaskosunun səbəbləri barədə düşünmək, Moskvanı Şərqə - Pekinə doğru döndərməsinin nəticələrini araşdırmaq, Moskva və Pekin ittifaqının məhz iqtisadi prioritetləri baxımından yekdil tərəfdaşlıq modeli yaradılmayacağının perspektivi üzərində düşünmək, çinliləri “rus elçiləri” ilə yuxarı tonda danışmağa sövq edən amilin yalnız Moskvanın Qərblə münasibətlərinin pisləşməsi olmamasını təhlil etmək daha önəmlidir. Bütün bu problemlər siyasi müzakirələrin predmeti olmalıdır. Lakin cılız təfəkkürlü insanlar ağır mövzulara baş vura bilmirlər. Onlar üçün lideri hücumlardan qorumaqdan savayı siyasət yoxdur.

Son zamanlar yaranan yeni siyasi təşkilatlar kütləviliyi təmin edə bilməsələr də intellektual göstərici baxımından fərqlənirlər. Onlar anlayırlar ki, liderlər ətrafında birləşmə effekt vermirsə, ideologiya ətrafında birləşib, mübarizə aparmaq daha məqbul hesab oluna bilər. Digər tərəfdən, siyasi proseslərdə lümpenlərin iştirakı ilə uğur qazanmaq imkansız görünür. Bu baxımdan, oliqarxların siyasi müxalifətə transferini reallaşdırmaq lazım gəlir. Həmin insanlar özlərinin maraqlarının təmin olunacağına inanmalıdır. Sistemdən kənar yeni təşkilatların yaranması dövrün tələbidir. Post-tarix dövrü yeni yanaşma tələb edir.

20 illik tarix geridə qaldı. İndi yeni tarix başlayır. Lakin Azərbaycan reallığında, maliyyə və digər resurslar olmadan, siyasi iddia ilə çıxış etməyin heç bir mənası yoxdur. Odur ki, oliqarx və gəncliyin, habelə, yeni texnologiyaları mənimsəyən gənc nəslin tamamilə yeni mübarizə üsullarından istifadə etməsi gərəkir.

Son bələdiyyə seçkiləri ətrafında cərəyan edən proseslər də sübuta yetirdi ki, Azərbaycan siyasi mühitində bir ideologiya boşluğu hökm sürür. Hətta siyasi təşkilatlar və onların ideoloqları da ideologiya məsələlərinə yetərincə diqqət vermirlər. Bu isə siyasi fəallığı ilə seçilən kütlənin də səmərəsiz mübarizə aparmasına şərait yaradır. Belə şəraitdə uzun müddət tab gətirmək isə mümkün deyil...